

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 oktyabr 2025-ci il №72 (2981) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.*

Söhbət zamanı dövlətimizin başçısının Binəli Yıldırımla görüşləri, həmçinin onun ölkəmizə səfərləri məmnunluqla xatırlanıb.

Qonaq Türk Dövlətləri Təşkilatının fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğulayıb ki, Təşkilatın Ağsaqqallar Şurası bundan sonra da Türk dövlətləri arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfəsini verməyə davam edəcək.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunulub, ölkəmizdə təşkil edilmiş digər beynəlxalq tədbirlər kimi, bu sammitin də yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə daha da genişlənməsi qeyd edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısı ilə qonağın görüşləri məmnunluqla xatırlanıb.




Baş katib Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür edib.

Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması, üzv və müşahidəçi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi işinə Azərbaycanın verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunduğu vurğulanaraq, tədbir çərçivəsində təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirə ediləcəyi bildirilib.

Dövlətimizin başçısı bu Zirvə Görüşünün Türk dünyasında dostluq, həmrəylik və tərəfdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşüb.

Ersin Tatar Prezident İlham Əliyevlə ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində görüşlərini, həmçinin Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Toplantısında iştirakını məmnunluqla xatırlayıb, Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev ölkəmiz tərəfindən Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyin bundan sonra da davam etdiriləcəyini deyib.

Qonaq Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə əldə edilmiş nəticələrlə bağlı təbriklərini çatdırıb.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirib.

Söhbət zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi qeyd edilib.

Qəbələdə keçirilən Zirvə Görüşünün TDT çərçivəsində ölkələrarası tərəfdaşlığın daha da genişlənməsində rolu vurğulanıb.

Görüşdə bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.

Macarıstanın Baş naziri Azərbaycana əvvəlki səfərlərinin, həmçinin Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirakının önəminə toxunub.

Söhbət zamanı bu ilin mayında Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Görüşü məmnunluqla xatırlanıb.

Azərbaycanla Macarıstan arasında əlaqələrin mövcud vəziyyəti yüksək qiymətləndirilib. Bu xüsusda enerji, investisiyalar, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub. Macar şirkətlərinin Cəbrayıl rayonunun Soltanlı kəndinin tikintisində iştirakı vurğulanıb.

(Ardı 2-ci səhifədə)

## ANAMA: Ötən həftə 156 mina və 517 partlamamış hərbi sursat zərərsizləşdirilib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 29 sentyabr - 5 oktyabr tarixlərində icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 82, tank əleyhinə 74 mina və 517 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1432,8 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Müdafiə Nazirliyi: Pirəkəşkül və Ağdərədə istifadəyə yararsız döyüş sursatları məhv ediləcək




Oktyabrın 6-10-da istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla, Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində məhv edilməsi prosesi həyata keçiriləcək.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsasın olmadığını diqqətə çatdırırıq", - məlumatda bildirilir.

## Yaradılan qalır, yaradılan yaşadılır...

2016-cı ilin aprelindən sonra bütün məmləkət boyu könüllər yaz havasına köklənməyə niyyətliydi. Məqalələrimdən birinə "Yaz havası arzulayır könlümüz" demişdim. Niyyət yazısıydı, xalqın adından Azərbaycan Ordusuna iltimas yazısıydı: Gözəlimiz ovqatı Azərbaycana, Azərbaycanı sevənlərə bir də yaşadın! Həm də bütövlüklə yaşadın! O ovqat yaşadıldı, yaşanıldı, yazda deyil, payızda yaşadıldı. 2020-ci ilin payızında, 2022-ci ilin payızında, 2023-cü ilin payızında. 2020-ci ilin payızına Azərbaycanımızın Zəfər fəsli dedik. Millixəlqi ruhun səsini eşidənlər bildilər ki, qüdrətli ordu bütün fəsilləri Zəfər fəsli kimi yaşatmağa qadirdi. Zəfər fəslini Azərbaycana və Azərbaycanı sevənlərə Azərbaycan Ordusu yaşatdı, Azərbaycan Ordusu yaşadır, Azərbaycan Ordusu yaşadacaq!..

Bu ilin payızı qılıqcıl payızdı, soyuğu-sazağı



hiss olunmayan payızdı, yelləri insaflı payızdı, buludu yuxa payızdı, yağışsız payızdı...

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Qəbələdə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşüb.

Qurbanqulu Berdiməhəmmədov Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun salamlarını dövlətimizin başçısına çatdırıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Türkmənistan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Söhbət zamanı Azərbaycan Prezidentinin Türkmənistan Xalq Məsləhətinin Sədri ilə görüşləri, həmçinin onun bu ilin iyulunda ölkəmizə səfəri məmnunluqla xatırlanıb.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunulub, bu sammitin türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsi və



xalqlararası əlaqələrin daha da inkişaf etdirilməsində rolu vurğulanıb.

Görüşdə qardaşlıq, mehriban qonşuluq və əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Türkmənistan dövlətlərarası əlaqələrinin hazırkı səviyyəsi yüksək qiymətləndirilib, xalqlarımızı dərin qardaşlıq ənənələrinin birləşdirdiyi qeyd olunub. Siyasi, iqtisadi, nəqliyyat, energetika, parlamentlərarası, humanitar, mədəni, təhsil və digər sahələrdə əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimizin beynəlxalq təşkilatlarda səmərəli əməkdaşlığına toxunulub.

Azərbaycan Prezidenti və Türkmənistan Xalq Məsləhətinin Sədri əməkdaşlığımızın



perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar.

* * *

Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb.

Dövlət və hökumət başçıları birgə foto çəkdiriblər.

* * *

Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar.

Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisi 1 hektardan çox olacaq. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Burada eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

Qeyd edək ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası istiqamətində Azərbaycan dövlətinin gördüyü işlərə TDT-yə üzv və müşahidəçi ölkələr də öz töhfələrini verir. Belə ki, Türkmənistan tərəfindən Füzulidə məscidin tikintisi ilə yanaşı, bu rayonda Özbəkistan tərəfindən Mirzə Uluqbəy adına məktəbin, Qazaxıstan tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Ağdamda Qırğızıstan tərəfindən Manas adına məktəbin tikilib istifadəyə verilməsi, Macarıstan tərəfindən Cəbrayılda məktəb binasının tikilməsi, Türkiyə şirkətlərinin bir çox tunel, körpü və yolların inşasında iştirakı bunun əyani göstəricisidir.

* * *

Oktyabrın 7-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türk Dövlətləri Təşkilatının (TDT) 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə rəsmi nahar verilib.

* * *

Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev Zirvə Görüşündə iştirak ediblər.

Prezident İlham Əliyev Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb, birgə foto çəkdirilib.



Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz. Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi.

İlk növbədə, Türk Dövlətləri Təşkilatına (TDT) uğurla sədrlik etmiş Qırğız Respublikasına təşəkkürümü bildirirəm.

Bu gün Türk Dövlətləri Təşkilatı, sadəcə, əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşır. Təşkilatımızın beynəlxalq səviyyədə nüfuzunun artması məmnunluq doğurur. Ortaq tarixi və etnik köklərimiz, müştərək milli-mənəvi dəyərlərimiz bizi bir ailə kimi birləşdirir.

Ölkəmiz təşkilatın işinə



dəstək məqsədilə Katiblyin hesabına 2 milyon ABŞ dolları məbləğində ianə köçürmüşdür.

Daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşləri ilə yanaşı, qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib. Ötən il ilk dəfə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü və bu il Budapeştdə baş tutmuş görüşümüz mühüm qərarlarla yadda qalmışdır.

Hörmətli həmkarlar, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün əsas amildir.

Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.

Məlumdur ki, təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil. Beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulduğu dövrdə ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq çox önəmli amillərdən biridir. Bu çərçivədə müttəfiqimiz olan Türkiyə ilə dərin əməkdaşlıq mövcuddur. Yalnız son bir ildə Türkiyə ilə birgə 25-dən artıq ikitərəfli və çoxmilləti hərbi təlimlər keçirilmişdir.

Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edirəm.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu

(Əvvəli 2-ci səhifədə)

Bugünkü dünyada hərbi güc hər bir ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün əsas amilidir.

2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu. Bununla da ölkəmizin ərazi bütövlüyü və əzəli torpaqlarımız üzərində suverenliyi bərpa olundu. Bu tarixi nailiyyət yalnız Azərbaycanın milli iradəsinin və əzmkar mübarizəsinin təntənəsi deyil, eyni zamanda, bölgədə ədalətin, sülhün və sabitliyin bərqərar olunmasına mühüm töhfədir.

İki ay əvvəl Vaşinqtonda, Ağ Evdə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək. Vaşinqton Zirvəsi çərçivəsində, eyni zamanda, ATƏT-in Minsk qrupunun və əlaqədar strukturların bağlanması üçün edilmiş birgə müraciətə uyğun olaraq, sentyabrın 1-də ATƏT tərəfindən qəbul edilmiş qərarla keçmiş münaqişənin bu qalıqları da aradan qaldırıldı.

Beləliklə, atdığımız addımlar Azərbaycanın irəli sürdüyü sülh gündəliyini bir daha təsdiq etdi.

Biz Ermənistan işğalını heç vaxt unutmayacağıq. Şəhidlərimizin əziz xatirəsini həmişə qəlbimizdə saxlayacağıq. Onların qanını biz döyüş meydanında aldıq. İşğalçını əzəli torpaqlarımızdan qovduq, Zəfər çaldıq və eyni zamanda, ədalətli sülhə nail olduq.

Əziz dostlar, nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir. Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlər qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxarıb.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır. Ölkəmiz Türkiyə ilə Mərkəzi Asiya arasında coğrafi, iqtisadi, nəqliyyat və digər sahələrdə körpü rolunu oynayır.

2022-ci ildən bəri Orta Dəhlizlə yükdaşımalar təqribən 90 faiz artıb. Dəhliz boyu tranzit müddətləri əhəmiyyətli dərəcədə azalıb. Xəzərin ən böyük ticarət donanması, yaxın illərdə gücü ildə 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, 9 beynəlxalq hava limanı, regionun ən böyük yükdaşıma aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirib.

Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat arteriyası və ikinci marşrut kimi mühüm əhəmiyyət kəsb edir.

Sülh, regional bağlantılar



və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib.

Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir.

Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək.

Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəhlizi üzərində işləyirik.

TDT-yə üzv ölkələrlə Azərbaycan bir çox önəmli sərmayə layihələrini icra edib. Bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox vəsait qoyulub. Bunun əsas hissəsi Türkiyə iqtisadiyyatına qoyulmuş sərmayədir. Bununla bərabər, Azərbaycan Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə sərmayə fondları yaradıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək.

Ümumilikdə, atılan addımlar Türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir.

Qeyd etdiyim kimi, ortaq tarixi və etnik köklərimiz, dillərimiz bizi bir ailə kimi birləşdirir. Burada 1926-cı ildə Bakıda təşkil edilmiş birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini vurğulamaq istərdim.

Gələn il birinci Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif edirəm.

Əminəm ki, Zirvə Görüşümüz qəbul edəcəyimiz qərarlarla Türk Dövlətləri Təşkilatının mövqeyini daha da gücləndirəcək, xalqlarımızın rifahına və təhlükəsizliyinə əlavə töhfə verəcəkdir.

Çıxışımın sonunda Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi - bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Sağ olun.

* * *

Zirvə Görüşü digər dövlət və hökumət başçılarının çıxışları ilə davam edib.

Göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına təşəkkür edən Qırğız Respublikasının Prezidenti **Sadır Japarov** deyib: "Cənab Baş katib, hörmətli dövlət başçıları. Əvvəlcə mən İlham Heydər oğlu Əliyevə və qardaş Azərbaycan xalqına göstərilən qonaqpərvərliyə və bu görüşün keçirilməsinə görə təşəkkür edirəm. Qəbələ iki min illik tarixə malik qədim bir şəhərdir və bizim burada yığışmağımız heç də təsadüfi deyil. Oktyabrın 3-də 16 illiyi tamam olan Naxçıvan Sazişi olduqca vacib bir sənəddir. Bu qısa dövr ərzində təşkilatımız dinamik şəkildə inkişaf edib və regional səviyyədə nüfuzunu gücləndirib".

Qırğızıstan Prezidenti ölkəsinin hər zaman sülhün, sabitliyin və mehriban qonşuluğun tərəfdarı olduğunu vurğulayaraq bildirib: "Biz Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistanın Baş naziri arasında imzalanmış Birgə Bəyannaməni alqışlayırıq. Bu, hər iki ölkənin siyasi rəhbərliyinin iradəsini göstərir və bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik və etimad qurulacaq. Bu sahədə Zati-aliləri İlham Heydər oğlu Əliyevin məhz sülh prosesinə olan töhfəsini xüsusi qeyd etmək istəyirəm".

Prezident Sadır Japarov 2026-cı ildə Dünya Köçəri Oyunlarının ölkəsində keçiriləcəyini vurğulayıb və Zirvə Görüşünün iştirakçılarını fəxri qonaq qismində həmin Oyunlara dəvət edib.

"Bu Zirvə Görüşü çərçivəsində Qırğız Respublikası təşkilata sədrliyini başa çatdırır və onu qardaş Azərbaycana ötürür. Əminəm ki, Azərbaycanın sədrliyi çərçivəsində təşkilat öz inkişafını davam etdirəcək və beynəlxalq müstəvidə nüfuzunu daha da artıracaq. Eyni zamanda, türk xalqlarının firavanlığına yönəlmiş bütün təşəbbüslər inkişaf edəcək", - deyə Sadır Japarov bildirib.

* * *

Türkdilli xalqlar arasında birliyin və əməkdaşlığın gücləndirilməsinin strateji əhəmiyyətini vurğulayan Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** Azərbaycan Prezidenti İlham Əliyevə qonaqpərvərliyə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkür edib. Qazaxıstan Prezidenti Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində imzalanmış Birgə Bəyannaməni tarixi addım adlandıraraq deyib: "Mən Azərbaycan ilə Ermənistan arasında sülhlə bağlı Birgə Bəyannamənin imzalanmasını təqdir etmək istəyirəm və inanıram ki, bu, 30 il davam edən münaqişənin həllində mühüm tarixi addım olacaq. Bu gün mövcud geosiyasi vəziyyətin fonunda türk dövlətləri arasındakı birlik çox vacibdir. Əziz qardaşlar, məşhur Azərbaycan şairi Bəxtiyar Vahabzadə vaxtilə qeyd etmişdir ki, "Türkün türklə ədavətə haqqı yoxdur". Bizim ağsaqqalların dedikləri bu kimi sözləri çox yüksək tutmalı və türk dövlətlərini bir araya gətirməkdə əlimizdən gələni etməliyik. Növbəti sədrlik bizim azərbaycanlı qardaşlarımıza keçir. Bu işdə Prezident İlham Əliyevə təşəkkür edir və uğurlar diləyirəm".

Kasım-Jomart Tokayev Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında yaradılmış yaşıl enerji dəhlizini Türk dünyasında uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirib.

* * *

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** çıxışında türk xalqlarının mədəni irsini qorumaqla yanaşı, süni intellekt texnologiyalarını da fəal şəkildə inkişaf etdirəcək böyük türk dili modelinin tətbiqinin vacibliyindən danışıb. O, həmçinin ölkəsinin Cənubi Qafqazda baş verənləri izlədiyini, bölgədə sülhə və sabitliyə töhfə verəcək addımların əhəmiyyətini vurğulayaraq deyib: "Azərbaycan ilə Ermənistan arasında avqustun 8-də imzalanan Birgə Bəyannaməni bu baxımdan xeyirli addım olaraq görür, davamının gəlməsini arzulayırıq. Bu gün bir daha türk dövlətləri olaraq aramızdakı həmrəylik, qarşılıqlı hörmət və qardaşlıq ruhu ilə gələcəyə əmin addımlarla irəlilədiyimizi göstərdik. Biz böyük Türk dünyasını daha da gücləndirərək övladlarımıza miras qoyacağıq. Bir azdan imzalayacağımız Qəbələ Bəyannaməsinin və qəbul edəcəyimiz qərarların Türk dünyası başda olmaqla, bütün dost və qardaş ölkələrə xeyirli olmasını diləyir, Azərbaycana və dəyərli qardaşım hörmətli Əliyevə mükəmməl ev sahibliyi üçün yenidən təşəkkürümü çatdırır, Türk Dövlətləri Təşkilatının üzvü olan dost və qardaş ölkələrin xalqlarına ən səmimi sevgilərimi göndərirəm".

* * *

Türk dövlətləri arasında iqtisadiyyat, ticarət, nəqliyyat əlaqələrinin inkişafı istiqamətində atılan addımların əhəmiyyətini qeyd edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** Azərbaycanla Ermənistan arasında sülh danışıqları prosesinə toxunaraq bildirib: "Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə yüksəksəviyyəli təşkilatçılığa və qonaqpərvərliyə görə təşəkkür edirəm. Sizin təşəbbüslərinizə sayəsində biz son illərdə Azərbaycanın müxtəlif guşələrini ziyarət etmişik. Bu gün biz gözəl Qarabağın inkişafının, Şuşa, Xankəndi və Ağdam şəhərlərində həyata keçirilən işlərin şahidiyik. Biz Sizin yaxın dostlarınız kimi bu inkişafa olduqca sevinirik. Heç bir mübaliğəsiz demək olar ki, Ermənistanla imzaladığınız sülhlə bağlı Birgə Bəyannamə məhz Sizin siyasi iradəniz sayəsində mümkün olmuşdur və bu, türk dövlətlərinin birgə nailiyyətidir. Bu Bəyannamə ilə iqtisadiyyat, ticarət, nəqliyyat və humanitar sahələrdə də geniş əməkdaşlıq imkanları açılır".

(Ardı 4-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## 2020-ci il 44 günlük Vətən müharibəsində tarixi Zəfərimiz, həmçinin 2023-cü ildə qətiyyətli antiterror tədbirləri nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu






**(Əvvəli 3-cü səhifədə)**

* * *

Türkmənistan Xalq Məsləhətinin Sədri **Qurbanqulu Berdiməhəmmədov** hazırda dünyadakı vəziyyət fonunda ölkələrimiz arasında əməkdaşlığın, sülhün, sabitliyin və etimadın gücləndirilməsinin vacibliyini vurğulayaraq qeyd edib: "İlk növbədə, mən əziz qardaşım, Zati-aliləri İlham Heydər oğlu Əliyevə bu tədbirdə iştirak etmək üçün dəvətinə və mənə göstərilmiş səmimi qonaqpərvərliyə görə təşəkkür edirəm.

Türk Dövlətləri Təşkilatı birgə tarixə, mədəniyyətə, irsə və dilə malik qardaş xalqları bir araya gətirir. Təşkilatın əsas hədəfi həmrəyliyi, dostluğu və qardaşlığı gücləndirmək, regional və beynəlxalq səviyyədə birgə fəaliyyəti təşviq etməkdir".

* * *

Macarıstanın Baş naziri **Viktor Orban** çıxışında türk dövlətləri arasında bəşəri dəyərlərin qorunduğu, sabitliyin və qarşılıqlı inamın hökm sürdüyü bir mühiti müşahidə etməsindən məmnunluğunu bildirib, dövlətimizin başçısının həyata keçirdiyi bərpaolunan enerji layihələrini, sülhə və əməkdaşlığa verdiyi önəmi vurğulayıb. "Hörmətli cənab Prezident, Sizin heyrətamiz nailiyyətləriniz, iqtisadiyyatın inkişafı, bərpaolunan enerji resursları və bu sahəyə qoyulan sərmayə onun sübutudur ki, Mərkəzi Asiya regionu və bu region Avropa İttifaqının "qızıl ehtiyatı"dır. Cənab Prezident Əliyevə təşəkkür edirəm ki, Azərbaycanın ən mühüm qaz yatağında macar şirkətinin iştirakı üçün şərait yaratdı. Bu, bizim üçün çox mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, Prezident Əliyevi və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz təkcə dost deyilik, biz strateji tərəfdaşıq", - deyə Baş nazir əlavə edib.

* * *

Azərbaycanın qədim tarixi şəhəri olan Qəbələdə keçirilən Zirvə Görüşünə dəvətə görə Prezident İlham Əliyevə və Azərbaycan xalqına dərindən təşəkkür etdiyini bildirən Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti **Ersin Tatar** deyib ki, bu Zirvə Görüşünün ortaq tariximizə qızıl hərflərlə yazılmış Qarabağ Zəfərinin beşinci ildönümünə təsadüf etməsi mühüm məna daşıyır. "Qardaş Azərbaycanın qətiyyəti, cəsarəti və haqlı mübarizəsi ilə qazandığı bu Qələbə yalnız ərazilərinin işğaldan azad edilməsi deyil, ədalətin və milli qətiyyətin zəfəridir. Bu, böyük Türk dünyasının ortaq zəfəridir. Qarabağ Zəfəri bizə bir daha göstərdi ki, Türk dünyası birlikdə olanda hər çətinliyin öhdəsindən gəlmək mümkündür. Həmrəy şəkildə fəaliyyət göstərən türk dövlətləri yalnız öz təhlükəsizliyini deyil, regionda sülhün, sabitliyin və rifahın ən güclü təminatçısıdır. Şimali Kipr Türk Cümhuriyyəti olaraq biz Azərbaycanın haqlı mübarizəsində hər zaman yanında olduq və bundan sonra da olacağıq. Biz eyni coğrafiyanın, eyni mədəniyyətin, eyni kökdən bəslənən ortaq tarixin mirasçılarıyıq. Biz bu gün yalnız bir araya gəlmirik, eyni zamanda, ortaq gələcəyimizi birlikdə formalaşdırırıq. Bu mühüm Zirvə Görüşündə bizi səmimi qonaqpərvərliklə qarşılayan Azərbaycan Prezidenti, Qarabağ fatehi cənab İlham Əliyevə bir daha təşəkkürümü bildirmək istəyirəm", - deyə E.Tatar bildirib.

* * *

Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömüralıyev** çıxışında qeyd edib ki, qədim Qəbələ şəhərində bir araya gəlmək, xüsusilə də Azərbaycan ilə Ermənistan arasında sülhün nizamlanması ilə bağlı Birgə Bəyannamənin imzalanmasından sonra toplaşmaq çox mühüm rəmzi məna daşıyır. O dedi: "Hörmətli dövlət və hökumət başçıları, Vaşinqtonda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, Türk dünyasının geosiyasi səviyyədə güclənəcək. Zəngəzur dəhlizinin açılması qədim İpək Yolunun bərpası ilə yanaşı, bizim ölkələr üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq. Çin, Qırğızıstan, Özbəkistan dəmir yolu layihəsi istismara verildikdən sonra Orta Dəhlizin strateji əhəmiyyəti daha da artacaq".

"Bu gün Türk Dövlətləri Təşkilatı mühüm regional təşkilata çevrilir", - deyən Baş katib Türk Universitetlər Birliyinin Daimi Katibliyinin və xüsusi proqram fondunun təsis edildiyini bildirdi və qeyd edib ki, Azərbaycanın ianə etdiyi 2 milyon ABŞ dollarının bir hissəsi məhz bu layihənin maliyyələşdirilməsinə yönəldiləcək.

Azərbaycanın təşkilata sədrliyinin əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi əlaqələrin gücləndirilməsi və qarşılıqlı tərəfdaşlığın inkişafında uğurlu olacağına əminliyini bildirən Kubanıçbek Ömüralıyev deyib: "Bu gün tərəfinizdən qeyd edilən vacib fikirlər və irəli sürülmüş təkliflər Qəbələ Bəyannaməsinə və bizim Katibliyin fəaliyyət planına daxil ediləcək. Tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Zati-aliləri cənab İlham Əliyevə bir daha təşəkkür edirəm".

* * *

Zirvə Görüşünə yekun vuran Prezident **İlham Əliyev** deyib:

- Hörmətli həmkarlar.

Əziz dostlar.

Bugünkü müzakirələrə verdiyiniz dəyərli töhfələr üçün hər birinizə təşəkkür edirəm. Səsləndirilən bəyanatlar və fikirlər Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyəti üçün əhəmiyyətli istiqamətləri müəyyən edir.

Təşkilatımızın Katibliyinə və Ağsaqqallar Şurasına ümumi işimizə verdikləri töhfəyə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bugünkü Zirvə Görüşü dostluğumuzu, qardaşlığımızı daha da gücləndirəcək.

Sağ olun!

* * *

Sonra Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşünün Bəyannaməsinin imzalanması mərasimi olub.

* * *

Daha sonra çıxış edən Prezident **İlham Əliyev** deyib:

- Əziz dostlar.

Əziz qardaşım, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov iyul ayında Qarabağa səfəri zamanı Füzulidə Türkmənistan tərəfindən məscidin tikintisini təklif edib. Biz bu hədiyyəyə görə qardaş Türkmənistana təşəkkür edirik.

Bu Zirvə Görüşü çərçivəsində məscidin təməlqoyma mərasimi nəzərdə tutulub.

İndi bütün qardaş ölkələrin rəhbərlərini təməlqoyma mərasiminə dəvət edirəm.

* * *

Sonra məscidin təməlqoyma mərasimi keçirilib.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri Böyük Britaniyanın Azərbaycandakı səfiri ilə görüşüb

*Oktyabrın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld ilə görüşüb.*



Müdafiə naziri Azərbaycan ilə Böyük Britaniya arasında digər sahələrdə olduğu kimi hərbi sahədə də əlaqələrin xüsusi əhəmiyyət daşıdığını və bunun hər iki tərəfin ordusunun inkişafına töhfə verəcəyini bildirib.

Müdafiə Nazirliyi xəbər verir ki, cənab F.Auld isə öz növbəsində ölkələrimiz arasında əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edib, əlaqələrimizin daha da inkişaf etdirilməsində bu kimi görüşlərin əhəmiyyətini vurğulayıb.



Krallığın ölkəmizdəki hərbi attaşesi 2-ci dərəcəli kapitan Gavin Tarbardın da iştirak etdiyi görüşdə tərəflər hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə ediblər.

# Yaradılan qalır, yaradılan yaşadılır...



(Əvvəli 1-ci səhifədə)

Bu ilin payızında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində 11-ci Bakı Beynəlxalq Kitab Sərgisi keçirildi. Belə tədbirlərin mahiyyəti mütaliəyə marağın yüksəliş niyyəti kimi, beynəlxalq ədəbi əlaqələr sistemində kitab nəşrlərinin və ədəbi ahənrübalığın formalaşdırılması kimi, oxucuların bədii düşüncəsinin, bədii düşüncələr əsasında dünyaduyumunun formalaşma fəlsəfəsi kimi dəyərləndirilir.

Sərgidə "Bəxtiyar Vahabzadə təqdimat zonası"nda hərbçi sözünün də işığına toplaşanlar vardı. Həm də bu toplaşmada sistemli, əsgəri məsuliyyətli bir nizam, nizamdan seçilməyən bir qələbəlik vardı. Bu qələbəlikdə ciddi bir maraq, ciddi bir sevgi, ciddi bir qürur da vardı: Tarixi Zəfərin beşinci ildönümü ilində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanova həsr olunmuş "Nəsillərə nümunə" və 1949-cu ildə Azərbaycanın tarixinin bir guşəsi kimi yaradılan və yaşadılan bir ünvan haqqında ensiklopedik bilgi kitabının - "Fəxri Xiyaban" kitabının təqdimatları da keçirildi. Hər iki kitabın müəllifi Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidi. Tədbirdən əvvəl təqdim edilən video-esse toplaşanlara bir gerçəkliyi səxavətlə yaşadır: Bu təqdimdə də tarixi öz axarına qaytaran Azərbaycan Ordusunun qüdrəti var! Generalların, polkovniklərin, müxtəlif rütbəli zabitlərin, kursantların, ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi bu təqdimat yaddaşlardan tarixə düşəcək tarixi təqdimatdı...

Tədbirin aparıcısı yüzlərlə hərbi vətənpərvərlik tədbirinin ssenari müəllifi, rejissoru və aparıcısı kimi tanıdığımız (və sevdiyimiz!) Abdulla Qurbanidi (və tədbir təsdiqlədi ki, başqa aparıcı tədbiri bu səviyyədə səmimiləşdirə bilməzdi). Onun remarkaları, təqdimatda çıxış edənlərin yeni formatda təqdimatı tədbirin mahiyyətini də gözəlləşdirdi, fəlsəfi qayəsini də. Təqdimata ayrılan vaxt çıxışlarla müəyyənləşdirildi, bu vaxtın necə sovuşduğu həm kitablara marağa görə, həm də deyilən fikirlərə görə hiss olunmurdu...

"Apostrof-A" nəşriyyatının direktoru Akif Dənzizadə Abdulla Qurbaninin yaradıcılığı haqqında müxtəsər məlumat verərək bildirdi ki, onun 50-yə yaxın kitabı "Apostrof-A"da nəşr olunub. "Abdulla Qurbani sözə ciddi münasibəti olan müəllifdir, kitab nəşrə tam hazır deyilsə, nəşriyyata təqdim etmir. Maraqlı bir məqamı da xatırladım: bütün kitablarının cildinin ideya müəllifi özüdür. "Cild kitabın mahiyyətinin göstəricisi deyilsə, dəyişməlidir, ya müəllif, ya da nəşriyyat", - Abdulla müəllim kitab nəşrinin bir mərhələsinin istehsal tezisini belə müəyyənləşdirdi. Bir neçə kitabının cildini axşam təqdim edib, səhər tezdən əvəzləyib, ya bütöv, ya da müəyyən hissələrini. Bu əvəzləmələrin hamısı kitabın tərtibatını, estetik dərkini də yüksəldirdi"...




Milli Müdafiə Universitetinin professoru, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov bu kitabların mahiyyətinin gerçək tarix olduğunu bildirdi, tarixdən öyrənilənlərin tarixə düşməsinin də tarix olduğunu xatırlatdı, bu kitabları tarixin (və dövlətçilik tariximizin) bir zərrəsi kimi dəyərləndirdi, "Nəsillərə nümunə"nin də, "Fəxri Xiyaban"ın da böyük vətəndaşlıq sevgisi və məsuliyyəti ilə yazıldığını da diqqətə çatdırdı, bunun qürurunu yaşadığını da bildirdi...

Əməkdar jurnalist, şair-publisist Rəşid Faxralı hər kitabın bir işıq, bu baxımdan hər işığın öz işığı olduğunu xatırlatdı, belə işıqların tarixi işıq kimi yaşadıldığını bildirdi, "Fəxri Xiyaban"ın ensiklopedik kitab kimi tarixin eksponatı olacağına, sərraf oxucuların düşüncələrinin Abdulla Qurbaninin "Nəsillərə nümunə" və "Fəxri Xiyaban" kitablarının da işığından barınacağına əminliyini vurğuladı.

"Azərnəşr"in baş redaktoru, Əməkdar jurnalist Əlövsət Ağalarov Abdulla Qurbaninin vətənpərvərlik mövzusunda yazdığı ilk kitablarının - "Şəhidlər dastanı", "Gültəkin qayası" və başqa kitablarının hələ keçən əsrin 90-cı illərinin əvvəllərində "Azərnəşr"də böyük tirajlarla nəşr olunduğunu bildirdi, bu kitabların da azərbaycançılığın kitabları kimi oxunacağını qeyd etdi.

General-mayor Altay Mehdiyev qürurla nəsillərə nümunə olmuş bir ömrün onun da ömür yolunun işığına döndüyünü xatırlayaraq qeyd etdi ki, bu ömür iki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun ömrüdür. Belə bir ömür haqqında yazılmış kitab, əlbəttə ki, tarixi kitab kimi dəyərli kitabdır.

General-mayor Elçin Xəlilov yeniyetmələrin hərbi vətənpərvərlik duyğularının pərvərişində Həzi Aslanov ömrünün böyüklüyündən, doğmalığından, sağlığında özünün, son nəfəsindən sonra ruhunun vətənsevərliyindən, xeyirxahlığından söz açdı.

Polkovnik Elvin Əzizov gənc əsgərlərin də, gənc zabitlərin də sərkərdələrimizin ömür və döyüş yolunu hansı maraq və sevgilərlə öyrəndiklərindən, bu ömürlərin işığını özünün ömür yolunun yol göstərəni kimi sevdiyindən, belə ömürləri hərbi xidmətinə sələf-xələf fəlsəfəsi bildiyindən, ... danışdı, "Nəsillərə nümunə" kitabının da bu tezisləri əhatələdiyini bildirdi...

Polkovnik Rüfət Məmmədov, polkovnik Elşad Əbilov belə kitabların istər əsgərlərin, istərsə də gənc zabitlərin hərbçi kimi püxtələşməsində, onların mənəvi-psixoloji hazırlığının formalaşmasında əhəmiyyətindən danışdılar...

Müdafiə Nazirliyinin Şəxsi



Heyət Baş İdarəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin Şəhid ailələri və qadınlarla iş sektorunun müdiri Zümrüd Səmədova belə kitabların yeniyetmələrin, gənclərin, çağırışçıların və əsgərlərin milli-mənəvi dəyərlərimizin də əsgəri olmalarında müstəsna əhəmiyyətə malik olduğunu bildirərək qeyd etdi ki, bu, Abdulla Qurbaninin yaradıcılıq missiyasının bəşəri çalarlarından biridir.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun ailə




üzvləri adından çıxış edən Birinci Qarabağ müharibəsinin iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli, hüquq üzrə fəlsəfə doktoru general-mayor Həzi Aslanov böyük tarixi şəxsiyyət Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan dövlətçiliyinə, bu baxımdan Azərbaycanın hərb tarixinə, sərkərdələrinə ehtiramından söz açaraq bildirdi ki, istər Böyük Vətən müharibəsində, istər Birinci Qarabağ müharibəsində, istərsə də Vətən müharibəsində şəhid olanların xatirəsi həmişə ehtiramlarla anılıb. Abdulla Qurbaninin "Nəsillərə nümunə" kitabı da belə ehtiramın təzahürüdür. Belə kitablar tarixi hadisə və faktlar əsasında hazırlansa da, onun publisistik mahiyyəti ruhun tarixidir. Biz qürurlanırıq ki, Əhəd kişinin oğlu Həzi bütün Azərbaycanın, Azərbaycanı sevənlərin əzizidir.

Nəvə Həzi Aslanov hər iki kitabın yüksək tarixi dəyərə malik olduğunu da bildirdi...

Tədbirdə iştirak edən kursantların baxışları "Nəsillərə nümunə" kitabından üzülmürdü. Bu səssiz mükalimələşməni duyanların sırasında mən də varam; niyyət var bu baxışlarda - general olacam, and var bu baxışlarda - sənin Azərbaycana sevgini sevgimin göyqurşağı biləcəm, ... Bu duyğuları XI Beynəlxalq Kitab Sərgisində Abdulla Qurbaninin "Nəsillərə nümunə" kitabı yaradıb. Neçə illərdi ovaxtkı Dağüstü Parkda mayın 24-də anılır Həzi Aslanov. Təkcə mayın 24-də yox, həmişə anıldı. Bu gün 11-ci Beynəlxalq Kitab Sərgisində anıldı. Sərgidə Abdulla Qurbaninin təqdimatında "Nəsillərə nümunə" dedi ki, Həzi Əhəd oğlu ədəbiyyatı da sevib, sözü də, kəlamı da. Bu gün Həzidən SÖZ də söz açır...

Bu sərgidə kitablar danışdı, kitablara görə sözə, söz vasitəsilə tarixə, milli-xəlqi ruhun qaynaqlarına vurğunlar danışdı; Abdulla Qurbaninin "Fəxri Xiyaban"ında tarix danışdı:

Zaman vardı, buludlar göy üzündə ayrı cür dolaşırdı, bulaqlar ayrı cür axırdı, şimşəklər ayrı cür çaxırdı, sellər ayrı cür daşırdı, daşdanırdı. Mərd mərdliyindəydi, namərd namərdliyində. Namərd dolaşığa çəkirdi, mərd haqqa. Namərdin siyasəti əsgərləşmişdi, mərdin ruhu. Namərd taxtının hayındaydı, mərd tarixinin. Mərdlər tarix yaradırdı, namərdlər yaradılanların qəsdindəydi...

"Fəxri Xiyaban" dedi ki,

Millət yoludur, haqq yoludur,
tutduğumuz yol,
Ey haqq, yaşa! Ey sevgili millət,
yaşa, var ol!

Millət yaşadı, zamanın axarını dəyişmək üçün, günahların, suçların sonlanması üçün, fəzilətlərin işığının işıqlığa çıxması üçün yaşadı. Xalqın işıqlı dühaları tarixi ayrı səmtə yönəltməkdəydi. Musiqisi ilə, ədəbiyyatı ilə, incəsənəti ilə, elmi ilə... Qoca tarix, biz unutmuruq, sən də unutma!...

Min illərin o üzündən gələn bu səsi ürəyi ilə dinləyənlər eşidə bilirdi...

Abdulla Qurbaninin sözlərinə yazılmış 50-dən çox hərbi marş və mahnıların mahir ifaçısı Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik Cahangir Qurbanov, Birinci Qarabağ müharibəsinin iştirakçısı Rəbiyyət İsmayılov da çıxışlarında hər iki kitabın dəyərli vətənpərvərlik kitabları olduğunu bildirdilər.

Polis mayoru Günay Qurbanova çıxışında Abdulla Qurbaninin yaradıcılığa heç kimə bəlli olmayan münasibətindən söz açaraq bildirdi ki, mən söz üstündə əsməyin nə olduğunu Abdulla Qurbaninin qələmlə təmasında görmüşəm. Ata kimi ruhumun sultanı olan yazıçı, şair, dramaturq Abdulla Qurbaninin gecənin bir aləmində əyilib nəfəsiylə saçımı telləndirməsini də çox görmüşəm, dan yerini necə salamladığını da. İlk sətirləri mənim uşaqlığımda yazılan "Fəxri Xiyaban" kitabı mənim mayor rütbəsində olduğum vaxtda nəşr olundu. Müddətin bu qədər uzun çəkməsi Abdulla Qurbaninin sözə sayğısının, dövlətçiliyə sədaqətinin ifadəsidir. Mən ədəbiyyatımızın Abdulla Qurbanisini - atamı təbrik edirəm. Həm də Vətən naminə!..

Sonda tədbir iştirakçılarına Abdulla Qurbaninin "Fəxri Xiyaban" və "Nəsillərə nümunə" kitabları hədiyyə olundu...

Sevgidən sərgiyə, sərgidən tarixə düşən işıq oxucu düşüncələrinin də səyyarəsi oldu. Bu səyyarə bir gerçəkliyin fəlsəfəsidir. Yaradılan qalır, yaradılan yaşadılır...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Tarixi ədalətin bərpası

*Haqq və ədalət... Bu, hər bir dövlətin, hər bir xalqın ən qiymətli dəyərlərindən biridir. Bu prinsiplər olmadan dövlətin güclü olmasından, cəmiyyətin inkişafından danışmaq mümkün deyil. Tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqı daim haqqını qorumağa çalışmış, lakin zaman keçdikcə ədalətsizliyin, haqsızlığın acı reallıqları ilə üzləşmişdir. Vaxtilə torpaqlarımızın bir hissəsinin işğal altında olması, soydaşlarımızın doğma yurd-yuvalarından, isti ocaqlarından ayrı düşməsi bu ədalətsizliyin sübutudur. Xalqımız uzun illər ərzində haqqımıza göz dikmiş qara qüvvələrin haqsızlığına səbir və mətanətlə dözdü, lakin haqq-ədalətin bərpa olunacağına inamını heç vaxt itirmədi.*



XX əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı haqsız ərazi iddiaları və silahlı təcavüzü xalqımızın tarixində ən faciəli səhifələrdən biri oldu. Bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olundu, dinc əhali qətlə yetirildi, insanlar yurd-yuvalarını tərk etmək məcburiyyətində qaldılar.

1988-ci ildə Ermənistanın silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsinə hücum edərək orada yaşayan azərbaycanlıları öz doğma yerlərindən qovub çıxardılar. Onlar Xankəndidə mitinqlər təşkil etməklə yanaşı, silahlı dəstələr də formalaşdırmağa başladılar. 1989-1990-cı illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü daha da gücləndi və bir neçə rayonu işğal etdilər.

1990-cı ilin əvvəlində Azərbaycan xalqı çətin sınaqlarla üzləşdi. Ermənistanın təcavüzkarlığı nəticəsində ərazi bütövlüyümüz yenidən pozuldu. Həmin dövrdə ordumuz zəiflədi, ölkədə siyasi böhran hökm sürdü. Azərbaycanın torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalı və həmin əraziləri özününküləşdirmək cəhdi ölkənin təhlükəsizliyinə ciddi təhdid yaradırdı. O dövrdə ölkədə daxili sabitliyin və milli birliyin zəifliyi nəticəsində Azərbaycanın müstəqil dövlət kimi yaşamaq iqtidarında deyildi. Buna baxmayaraq, insanlarda bir arxayınlıq, rahatlıq var idi. Belə bir çətin dövrdə xalqımız öz gücünə inanır, dövlətimizin mənafeyini müdafiə edən şəxsiyyətin qüdrətinə arxalanır, eləcə də siyasi iradənin möhkəmliyinə böyük ümid bəsləyirdi. Məhz bu çətin sınaqlar zamanı xalq böyük inam və güvən bəslədiyi dahi şəxsiyyəti - Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasını təkidlə tələb etdi.

1990-cı ilin iyununda Heydər Əliyev Moskvadan Bakıya qayıtdı və təcili olaraq Naxçıvana getdi. Burada siyasi fəaliyyətini davam etdirən Ulu Öndər Heydər Əliyevin əsas amalı Azərbaycanı müstəqil dövlət kimi görmək idi. Dahi şəxsiyyət Heydər Əliyev 1991-ci ildə Azərbaycanın dövlətçiliyini qorumaq üçün bir sıra mühüm islahatlar həyata keçirdi. Belə ki, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın hazırlanmasına nail oldu. Aparılan islahatlar Ulu Öndərin müstəqilliyə olan bağlılığının və uzaqgörən siyasətinin təzahürü idi. Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində hüquqi islahatlar həyata keçirərək beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu artırdı.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Beləliklə, Azərbaycan xalqı öz müstəqilliyini bərpa etdi.

Ürəyi həmişə azərbaycançılıq ideyaları ilə döyünən Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın böyük arzusu, istəyi ilə yenidən hakimiyyətə qayıtdı. Onun uzaqgörən siyasəti, xalqın maraqlarını hər şeydən üstün tutması Azərbaycanın milli birlik ruhunu daha da gücləndirdi və ölkədə apardığı islahatlar nəticəsində dövlətçiliyin əsas prinsiplərini müəyyən etdi. Bu dövrdə dövlət müstəqilliyi daha da gücləndirildi, ordu quruculuğu sahəsi yeniləndi, iqtisadiyyat dirçəldildi və beynəlxalq nüfuzun artırılması istiqamətində bir sıra layihələr həyata keçirildi. Azərbaycanın ərazi bütövlüyünün qorunması Ulu Öndər Heydər Əliyevin prioritet istiqamətlərindən biri oldu.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövləti və xalqı üçün ardı-arası kəsilmədən bir sıra zəruri islahatlar həyata keçirdi. Bu islahatlar nəticəsində dağılmaq təhlükəsində olan ölkədə baş verən özbaşınalıq, xaos, hərcmərclik tez bir zamanda aradan qaldırıldı və dövlətimiz yenidən quruldu. Ölkənin elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyevin imzası olmasın. O imza Azərbaycanı bütün dünyaya tanıdıb. Ulu Öndər Heydər Əliyev Azərbaycanın sanki bir memarı idi. Onun qurub-yaratdığı ölkə bu gün etibarlı, qətiyyətli, güclü bir Sərkərdənin - Ali Baş Komandan İlham Əliyevin nəzarəti altındadır.

2003-cü ildə xalqın istəyi, iradəsi ilə Prezident seçilən İlham Əliyev bütün görülən işlərin davamı olaraq ölkədə ordu quruculuğu sahəsində daha da möhkəmləndirdi. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi və Azərbaycan dünyaya güclü, sarsılmaz və hüquqları qorunan bir dövlət olaraq təqdim edildi. Prezident İlham Əliyevin qətiyyəti, diplomatik bacarığı və ordunun gücləndirilməsi istiqamətində apardığı islahatlar Azərbaycan xalqının haqlı iddialarını beynəlxalq səviyyədə tanıtdı və işğal altında olmuş torpaqlarımızın azad olunması üçün yol açdı.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bütün cəbhə boyu Azərbaycan mövqelərini atəşə tutması nəticəsində dinc insanlar yaralandı, şəhid oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə düşmən təxribatlarının qarşısını almaq məqsədilə Azərbaycan Ordusu əks-hücuma keçdi. Bu savaşa Sərənpərvər oğullar - həm hərbi qulluqçularımız, həm də könüllü döyüşmək istəyənlər qoşuldular. Rəşadətli Azərbaycan Ordusu düşmənin canlı qüvvəsini və strateji obyektlərini məhv etdi. İgid oğullarımızın sayəsində hər gün bir kənd, bir şəhər işğaldan azad edildi. Təcavüzkar Ermənistan öz məğlubiyyətini artıq bilirdi, lakin məkrli niyyətindən də əl çəkmək istəmirdi. Sadəcə ortalıqda "meydan sulamaq"la özlərinə təsəlli verirdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın tarixində qızıl hərflərlə yazılan tarixi Zəfər mərhələsi oldu. Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu bu haqq savaşında özünəməxsus gücünü, şücaətini göstərdi. Torpaqlarımız geri alındı. 2020-ci il noyabrın 8-də isə Qarabağın tacı olan Şuşa şəhəri işğaldan azad edildi. Bununla da xalqımız Böyük Zəfərə nail oldu.

Şuşa şəhərinin işğaldan azad olunması xəbərini Ali Baş Komandan xalqımıza belə çatdırdı: "Əziz Şuşa! Sən azadsan! "Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa! Biz səni dirçəldəcəyik!..".

Prezident İlham Əliyevin bu sevincli çıxışı erməni qüvvələrini bir daha da sarsıtdı. Düşmən məğlubiyyətini açıq-aşkar büruzə verdi. Beləliklə, Ermənistanın Baş naziri Nikol Paşinyan kapitulyasiya aktını imzaladı.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanat imzalandı. Bu Bəyanat atəşkəsin labüdlüyünü və müharibənin dayandırılmasını səciyyələndirən bir rəsmi sənəd oldu.

2025-ci il noyabrın 8-də - Şuşanın işğaldan azad olunduğu bir gündə xalqımız Böyük Zəfəri böyük qürur hissi ilə qeyd edəcək. Bu qüruru Azərbaycan xalqına yaşadan Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, rəşadətli Azərbaycan Ordusunun şücaəti, şəhidlərimizin qanı, yaralı döyüşçülərimizin qəhrəmanlığı və xalqımızın milli birliyi oldu.

Bu gün daxilimizdə olan şüarları büruzə vermək həm haqqımız, həm də mənəvi borcumuzdur. Buna rəğmən deyirik: Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan!

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Xüsusi təyinatlı təhsil müəssisələrində Beynəlxalq Müəllimlər Günü qeyd olunub







*Beynəlxalq Müəllimlər Günü münasibətilə Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələrində bayram tədbirləri keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı, ərazi bütövlüyü, suverenliyi uğrunda canını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbir iştirakçılarına bayramın yaranma tarixi ilə bağlı geniş məlumat verilib. Beynəlxalq Müəllimlər Gününün Ulu Öndərin müvafiq Sərəncamına əsasən hər il ölkəmizdə bayram kimi qeyd edildiyi xüsusi vurğulanıb. Savadlı cəmiyyətin formalaşmasında müəllimlərin rolunun danılmaz olduğu, xalqımız tərəfindən onlara hər zaman hörmət bəsləndiyi qeyd edilib.

Tədbirlərdə çıxış edən müəllimlər ölkəmizdə müəllimlərin hər zaman dövlət qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıblar.

Sonda təhsilin inkişafında fərqlənən bir qrup professor-müəllim heyəti təltif olunub.

## Türkiyəli ekspert: Qəbələdə keçirilən Zirvə Görüşü yeni dövrə doğru strateji addımdır

*Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşü Türk dünyasının inkişafında yeni dövrə doğru atılan strateji addım oldu. Azərbaycandakı müzakirələr təşkilatın Bişkek sammitində əldə olunan nailiyyətləri möhkəmləndirərək, TDT-nin siyasi birliyini gücləndirib, türk ölkələrinin iqtisadi inteqrasiyasına və mədəni konsolidasiyasına təkan verib.*

Bu fikri AZƏRTAC-la söhbətdə Ankarada fəaliyyət göstərən Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Hazel Çağan Elbir söyləyib.

Onun sözlərinə görə, Qəbələ Zirvə Görüşü TDT-nin təkcə regionda deyil, həm də qlobal miqyasda "yüksələn güc" olduğu faktını nümayiş etdirdi. "Türk dövlətləri ailəsi"nin mövcudluğunun anlamı dünya miqyasında daha çox hiss olunur", - deyə o, TDT-ni türk ölkələri arasında onlarla müxtəlif sahədə əməkdaşlıq üçün tələb olunan platforma adlandırıb.

Ekspert ÜDM-i 2,1 trilyon dollara çatan türk ölkələrinin iqtisadi potensialına, TDT ölkələri arasında ticarət dövriyyəsinin artdığına da diqqət çəkib, türk dövlətləri tərəfindən həyata keçirilən və təşkilatın qlobal nüfuzunu artıran çoxsaylı nəqliyyat və enerji layihələrini sadalayıb.

Onun sözlərinə görə, Qəbələdə keçirilən 12-ci TDT Zirvə Görüşü türk ölkələrinin siyasi, iqtisadi və mədəni inteqrasiyasını inkişaf etdirmək üçün çox mühüm şansdır.

Analitik Qəbələdə keçirilən TDT Zirvə Görüşündə özünü büruzə verən Azərbaycanın strateji liderliyi amilini vurğulayıb. "Ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonrakı dövrdə Azərbaycanın TDT məkanında mərkəzi rolu daha nəzərəçarpan olub", - deyə o, əlavə edib və Qəbələ Zirvə Görüşünün türk ölkələri üçün ortaq gələcəyə ümidləri gücləndirdiyini vurğulayıb.

# Özünütəlqin metodları

**(Əvvəli 68-ci sayımızda)**

Komandir-rəislər psixoloji cəhətdən, həqiqətən də, möhtəşəm gücə malik olan özünütəlqin metodları düşünməklə və şəxsi heyətə aşılamaqla intizamın, qarşılıqlı münasibətlərin, müxtəlif xidməti və döyüş tapşırıqlarının müvəffəqiyyətlə icrasına nail ola bilərlər.

Özünütəlqin metodlarından düzgün istifadə etmək, fəaliyyət şəraitinə və vəziyyətinə uyğunlaşdırmaq hər bir komandir-rəis heyətinin üzərinə böyük məsuliyyət qoyur. Özünütəlqin düzgün tətbiq olunarsa, hərbi qulluqçular özlərini daha məsuliyyətli və üzərlərinə düşən vəzifələrin icrasına sadiq hiss edərlər.

Bu metodlardan istifadə bölmədə, sadəcə, motivasiya üçün deyil, həm də daxili nizamın və şəxsi heyətin psixoloji davamlılığının formalaşması üçün vacibdir.

Bu metodların başlıcası Hərbi Andımızdır. Çünki ən güclü özünütəlqin vasitəsi olan Hərbi Andı dərindən, şüurlu olaraq qavrayan, onun tələblərini yerinə yetirməyə çalışan hərbi qulluqçunun xidməti vəzifələrinin icrası zamanı üzərində nəzarətə bir o qədər də ehtiyac duyulmur.

Nəyəsə and içmək, insanı o işi mütləq görəcəyinə motivasiya edən ən güclü vasitə və stimuldur. Çünki and içən insan andına sadiq olmaq üçün bütün daxili güc və imkanlarını səfərbər edərək özünə hər bir vəziyyətdə hakim olur, bütün çətinliklərə, əziyyətlərə və məhrumiyyətlərə asanlıqla qatlanmağı bacarır.

And içmək insanın daxili motivasiyasını gücləndirir. Hərbi qulluqçular şüurlu surətdə Hərbi Andın məsuliyyətini dərk etdikdə, daxilən özlərinə nəzarətləri artır, çətinliklərə sinə gərməyə hazır olurlar.

Hərbi And, əsgərin vicdanı qarşısında verdiyi söz kimi, onu daima yüksək əxlaqlı və intizamlı davranmağa sövq edir.

Lakin burada vacib bir xüsusiyyət də vardır ki, o da əsgərlərdə inam formalaşdırılmalıdır. Çünki insan inamsız yaşaya bilmədiyi kimi komandirlər də xidmətin ilk günlərindən, hətta ilk saatlarından əsgərlərin inamını qazanmalı, eləcə də onlarda hərbi xidmətin müqəddəsliyinə, bir-biriləri ilə münasibətlərin qarşılıqlı inam və səmimiyyət çərçivəsində qurulmasına, döyüş yoldaşlığının müqəddəsliyinə inam yaratmalıdırlar. Bunun üçün ilk növbədə komandir-rəis heyəti öz dediklərinə özləri inanaraq və şəxsi nümunə olaraq əsgərləri inandırmağı bacarmalı və onları ruhlandırmalıdır.

Bölmədə inam formalaşdırmaq komandirin ilk vəzifəsidir. Çünki əsgərin komandirə inamı, onun əmrlərinə tabe olmasında və ruh yüksəkliyində birbaşa rol oynayır. Əsgərlərin komandirə və bir-birilərinə inamı olmasa, bölmədə fərdi, eləcə də birgə fəaliyyət və döyüş qabiliyyəti zəifləyir.

Hərbi nizamnamələr, hərbi xidmətədək cəmiyyətin müxtəlif təbəqələrində və müxtəlif ailələrdə böyüyərək əsgərlərdə ilk növbədə vahid davranış və münasibət modeli formalaşdırmaq üçün əsas vasitədir. Eyni zamanda, hərbi xidmətin və komandanlığa sədaqətin vacibliyini öyrətmək və aşılamaq işində hərbi nizamnamələrin təsir gücü inkaredilməz dərəcədə böyükdür. Hərbi nizamnamələrin tələblərinin bölmələrdə dərindən mənimsənilməsinə nail olan komandir-rəis heyəti şəxsi heyətdə hüquqi və psixoloji hazırlığı gücləndirir.

Komandir-rəislərin əsas missiyası yalnız əmrlər vermək deyil, psixoloji və mənəvi liderlik nümayiş etdirməkdir. Özünütəlqin, inam formalaşdırmaq, Hərbi And və nizamnamələrin tətbiqi bu liderliyin əsas alətləri sayılır. Komandirin öz dediklərinə inanması və tətbiq etməsi, əsgərin də inanmasına səbəb olur.

Komandir öz davranışı, sözləri, yanaşma tərzi və münasibətilə nümunə olmalı, şəxsi heyətdə inam aşılamalı, öyrətməli və onlarda daima ruh yüksəkliyi yaratmalıdır. Qoşunlarda, bölmələrdə hərbi nizamnnamələrin maddələrinin izahı və gündəlik həyatla əlaqələndirilməsi, əsgərlərin həmin normaları mənimsəmələrini asanlaşdırır. Buna görə də əsgərlərdə hərbi xidmətin müqəddəsliyinə, bir-biriləri ilə münasibətlərin qarşılıqlı inam və səmimiyyət baxımından qurulmasına, döyüşçü yoldaşlığının müqəddəsliyinə inam yaratma işində komandir-rəis heyəti ilk növbədə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərini, xüsusilə "Hərbi qulluqçuların ümumi vəzifələri"ni (1-6-cı maddələr), "Rəislər və tabe olanlar, böyüklər və kiçiklər" (9-13-cü maddələr), "Əmrlərin verilməsi və yerinə yetirilməsi qaydaları"nı (14-16-cı maddələr) rəhbər tutmalıdırlar.

Çox yüksək mənəvi dəyərlərə əsaslanaraq tərtib edilmiş "Hərbi qulluqçuların ümumi vəzifələri"nin hər bir cümləsini xüsusi vurğulayaraq əsgərlərin qarşısında izah edən komandir-rəis heyəti artıq sözə ehtiyac olmadan şəxsi heyətə yüksək özünütəlqin və döyüşçü yoldaşlığına inam hissi, "Rəislər və tabe olanlar, böyüklər və kiçiklər"ə aid maddələri izah edib öyrətməklə hərbi qulluqçuların bir-birilə qarşılıqlı münasibətlərinin qanunauyğunluğunu, "Əmrlərin verilməsi və yerinə yetirilməsi qaydaları"nı izah edib öyrətməklə hərbi qulluqçuların bir-birilə tabeçilik münasibətlərinin və icraçılıq düşüncəsinin formalaşmasına stimul verər, bu maddələrin öyrənilməsini tələb etməklə bu işi gücləndirər və onlarda yüksək daxili özünənəzarət və intizam yaratmış olarlar.

**"Hərbi qulluqçuların ümumi vəzifələri"ndə göstərildiyi kimi:**

1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, Hərbi Andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını da əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

2. Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı, ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli, sayıq olmalı, hərbi və dövlət sirlərini ciddi surətdə saxlamalıdır.

3. Hərbi qulluqçu Azərbaycan Respublikası vətəndaşının yüksək adını ləyaqətlə daşımalı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, xidmət etdiyi hərbi hissənin şərəfini və döyüş şöhrətini, öz hərbi rütbəsinin şərəfini qorumalıdır.

4. Hərbi qulluqçu:

- döyüş əməliyyatları aparmağın, yaralılarla, xəstələrlə, gəmi qəzasına uğramış şəxslərlə və döyüş əməliyyatları rayonunda mülki əhali ilə, eləcə də hərbi əsirlərlə rəftar etməyin beynəlxalq qaydalarını öyrənməyə və ona riayət etməyə;
- Vətən qarşısındakı öz Hərbi Andı ilə öhdəsinə götürdüyü əsgəri borcunu axıra qədər yerinə yetirməyə;
- ondan asılı olmayan səbəblərə görə döyüş əməliyyatlarının gedişində (yaranmış döyüş şəraitinə görə) öz qoşunlarından ayrı düşmək nəticəsində və düşmənə müqavimət göstərməyin bütün üsul və vasitələrindən istifadə edib qurtardıqdan sonra, yaxud ağır yara, kontuziya nəticəsində köməksiz vəziyyətdə əsir düşdükdə özünü və yoldaşlarını əsirlikdən azad etmək üçün hər hansı imkandan istifadə etməyə borcludur.

5. Hərbi qulluqçu komandirlərə (rəislərə), böyüklərə hörmət etməli, intizamın və qayda-qanunun saxlanmasında onlara yardım göstərməli, əsgəri nəzakət və əsgəri salamlaşma qaydalarına ciddi riayət etməli, həmişə forma üzrə geyinməli, təmiz və səliqəli olmalıdır.

Hərbi qulluqçu onunla bağlı baş vermiş hadisələr və ona tutulmuş iradlar barəsində özünün bilavasitə rəisinə məlumat verməlidir.

6. Hərbi qulluqçu xidmət məsələlərinə dair özünün bilavasitə rəisinə və onun icazəsi ilə komanda üzrə daha böyük rəisə müraciət edə bilər.

Hərbi qulluqçu şəxsi məsələlərə dair, bir qayda olaraq, özünün bilavasitə rəisinə, xüsusi hallarda isə böyük rəisə müraciət edə bilər.

Hərbi qulluqçu rəisə yazılı surətdə müraciət etdikdə raportu yalnız komanda üzrə verə bilər.

Hərbi qulluqçu təklif, ərizə və şikayət verdikdə İntizam Nizamnaməsinin müddəalarını rəhbər tutmalıdır.

**"Rəislər və tabe olanlar, böyüklər və kiçiklər"də göstərildiyi kimi:**

9. Tutduğu vəzifələrinə və hərbi rütbələrinə görə hərbi qulluqçular biri o birinə münasibətdə rəis və yaxud tabe olandır.

Rəislər tabelikdə olanlara əmr vermək hüququna malikdirlər və verdikləri əmrlərin yerinə yetirilməsini yoxlamalıdırlar. Tabelikdə olanlar rəislərinə sözsüz tabe olmağa borcludurlar.

10. Xidmət üzrə hərbi qulluqçuların müvəqqəti də olsa tabe olduqları rəislər birbaşa rəislər sayılırlar.

Tabelikdə olana ən yaxın birbaşa rəis bilavasitə rəis adlanır.

11. Həqiqi hərbi xidmətdə olan aşağıdakı rütbəli hərbi qulluqçular rəis hesab olunurlar:

- generallar, polkovniklər - bütün kiçik zabitlər, gizirlər, çavuşlar və əsgərlər üçün;
- polkovnik-leytenant, mayor - bütün gizirlər, çavuşlar və əsgərlər üçün;
- bütün kiçik zabitlər - bütün çavuşlar və əsgərlər üçün;
- bütün gizirlər - xidmət etdikləri hərbi hissənin çavuşları və əsgərləri üçün.

12. Hərbi qulluqçular tutduqları vəzifəyə və hərbi rütbələrinə görə biri o birinə münasibətdə rəis və yaxud tabe olan deyillərsə, böyük və ya kiçik ola bilərlər.

Böyüklük hərbi qulluqçuların hərbi rütbəsi ilə müəyyən edilir.

Hərbi rütbəsi böyük olanlar hərbi rütbəsi kiçik olanlara irad tutmaq hüququna malik olub onlardan hərbi intizama, ictimai qayda-qanuna, geyim formasını geyinmə, həmçinin davranış və salamlaşma qaydalarına riayət etmələrini tələb etmək hüququna malikdirlər. Rütbəcə kiçiklər böyüklərin bu tələblərini sözsüz yerinə yetirməlidirlər.

13. Bir-birinə tabe olmayan və birgə xidmət edən hərbi qulluqçuların bir-birinə xidməti münasibətləri onların komandiri (rəisi) tərəfindən müəyyən edilməmişsə, onda daha böyük vəzifəli, vəzifələri eyni olduqda daha böyük rütbəli hərbi qulluqçu rəis hesab olunur.

**"Əmrlərin verilməsi və yerinə yetirilməsi qaydaları"nda göstərildiyi kimi:**

14. Əmrləri bir qayda olaraq tabelik üzrə verirlər.

Böyük rəis zəruri hallarda tabe olana, onun bilavasitə rəisinə bildirmədən əmr verə bilər.

15. Hərbi qulluqçuya əmr verildikdə o, "Oldu" cavabını verərək əmri yerinə yetirməlidir. Zəruri hallarda tabelikdə olanın verilən əmri düzgün başa düşdüyünə əmin olmaq məqsədi ilə rəis verilən əmri qısa şəkildə təkrar olunmasını ondan tələb edir.

Əmr yerinə yetirildikdən sonra hərbi qulluqçu bu barədə əmri vermiş rəisə və özünün bilavasitə rəisinə məlumat verməlidir.

16. Əgər əmri yerinə yetirən hərbi qulluqçu vəziyyətinə görə daha böyük olan rəisdən yeni əmr alarsa və bu əmrin yerinə yetirilməsi birinci əmrin icrasına mane olarsa, hərbi qulluqçu bu barədə ikinci əmri verən rəisə məlumat verməlidir və o əmrini təsdiq etdikdən sonra sonuncu əmri yerinə yetirməlidir.

İkinci əmri verən rəis bu barədə birinci əmri verən rəisə xəbər verməlidir.

Məqalənin əvvəlində də qeyd etdiyimiz kimi Daxili Xidmət Nizamnaməsinin maddələrinin tabelikdə olan şəxsi heyətə öyrədilməsi və tələb edilməsi daxili nizam-intizamın qorunması, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin sağlam inkişafı və müxtəlif xidməti, döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi üçün əsas rol oynayır.

Əminəm ki, Nizamnamə maddələrinin sadəcə rəsmi tələbkarlıq mövqeyindən deyil, eyni zamanda, şəxsi heyətdə özünütəlqin formalaşdırmaq məqsədilə izah edilməsi, mahiyyətinin və əhəmiyyətinin çatdırılması həm şəxsi heyətin məsuliyyət hissini artırmış, həm də daxili xidmətdə sabitliyi təmin etmiş olar.

***P.S.** Məqalənin hazırlanmasında Daxili Xidmət Nizamnaməsindən və psixologiyaya aid müxtəlif vəsaitlərdən istifadə olunmuşdur.*

**Polkovnik-leytenant**
**Fərhad MƏCİDLİ**

## Tarix yazan oğullar

# Şəhid Ruslan Qəhrəmanovun doğum günü qeyd olunub





Bu günlərdə Şəmkir rayonunun Xuluf kəndində şəhid Ruslan Qəhrəmanovun doğum gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin, ictimaiyyətin nümayəndələri, şəhid ailələri, şəhidin təhsil aldığı orta məktəbin şagird və müəllim kollektivi, döyüşçü yoldaşları və qonaqlar iştirak ediblər. Şəhid Ruslan Qəhrəmanovun həyatı və keçdiyi döyüş yolundan qısa məlumat verilib.

Şəhid kapitan Qəhrəmanov Ruslan Mehman oğlu 6 oktyabr 1988-ci ildə Almaniyada hərbçi ailəsində anadan olub. 1991-ci ildə Sovet ittifaqının süqutundan sonra valideynləri ilə doğma Azərbaycana qayıdıb. Ata yurdu Şəmkir rayonunun Xuluf kəndində yaşayıb və orada orta məktəbə gedib. 8-ci sinfi bitirdikdən sonra sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edib. Dövlət İmtahan Mərkəzində imtahan verərək liseyə qəbul olub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirəndən sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olub. "Motoatıcı" ixtisası üzrə ali hərbi məktəbi bitirən Ruslan cəbhə bölgəsində zabit kimi xidmətə başlayıb. Yüksək bilik və bacarıqları ilə qısa zamanda komandirlərinin rəğbətini qazanıb. Fiziki hazırlığını daim artıran Ruslan Xüsusi Təyinatlı Qüvvələrdə xidmətini davam etdirmək qərarına gəlib. O, burada da həm bilik səviyyəsinə görə, həm də idman normativlərini vaxtında yerinə yetirməsi ilə seçilib. Zabit bir neçə dəfə xarici ölkələrdə təlim kurslarında iştirak edib. Onun qazandığı bu təcrübə peşəkarlığını daha da artırıb. 2020-ci il sentyabrın 27-də düşmən cəbhənin bir neçə istiqamətində hücuma keçib. Ordumuzun təmas xəttində yerləşən bölmələr düşmən hücumunun qarşısını alıb və onu ağır itkilərə düçar edib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusuna əks-hücum əmri verdi. Həmin vaxt Ruslanın xidmət etdiyi bölmə Murovdağ istiqamətində döyüşə atılıb. Ruslan və onunla döyüşən silahdaşları düşmənin əsas hədəflərini məhv ediblər. Daha sonra onların hücum istiqaməti dəyişdirilib. Füzuli və Cəbrayıl istiqamətində əks-hücumu davam etdirən ordumuzun bölmələri uğurlu nəticələr əldə edib. 5 oktyabr 2020-ci ildə Füzuli uğrunda gedən döyüşlərdə Ruslan Qəhrəmanov düşməni ağır itkilərə düçar edənlərin sırasında olub. Düşmənin atdığı güllə igid zabitimizin həyatına son qoyub.

Ruslan Mehman oğlu Qəhrəmanov ailəli idi. Onun 3 övladı atasının adına layiq böyüyür.

Şəhid Ruslan Qəhrəmanov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medallarına layiq görülüb.

Atası Mehman Qəhrəmanov Birinci Qarabağ müharibəsi iştirakçısıdır. Ağdərə uğrunda gedən döyüşlərdə ağır yaralanıb və müharibə əlilidir.

Anım gününə gələnlər şəhid kapitan Ruslan Qəhrəmanovun məzarını ziyarət ediblər və gül dəstələri qoyublar. Şəmkir rayon icra hakimiyyətinin nümayəndəsi, döyüşçü dostları, müəllimlər və başqaları çıxış edərək şəhidin həyatından və keçdiyi döyüş yolundan bəhs ediblər.

Sonda Mehman Qəhrəmanov tədbirə gələnlərə ailəsi adından təşəkkür edib.

**Mübariz MUSAOĞLU**
**Şəmkir şəhəri**

# İdman



### III MDB Oyunları: Azərbaycan boksçuları turniri 24 medalla başa vurublar

Yevlax Olimpiya İdman Kompleksində III MDB Oyunları çərçivəsində oğlanlar arasında boks yarışlarının final görüşləri yekunlaşıb.

Azərbaycan millisinin boksçuları uğurlu çıxış edərək qızıl medallar qazanıblar. Qardaş Rəhimov (46 kq), Əli Əliyev (48 kq), Əli Abaslı (52 kq), Şahin Aslanov (60 kq) və Səfdər Məmmədzadə (+80 kq) final görüşlərində rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Bundan başqa, Əli Ruşanov (46 kq), Ayxan Həsənov (50 kq), Raul Heydərli (57 kq), Əflatun İsmiyev (57 kq), Toğrul Quliyev (60 kq), Haxverdi Həsənov (63 kq), Adil Zalov (70 kq), Şükar Əliyev (75 kq) və İsmayıl Vəliyev (80 kq) bürünc medallara layiq görülüblər.

Qadın boksçularımız isə turniri 1 qızıl, 5 gümüş və 4 bürünc medalla başa vurublar. Beləliklə, Azərbaycan boksçuları turnirdə 24 medal qazanıblar.

### Azərbaycan cüdoçusu dünya çempionatında bürünc medal qazanıb



Perunun paytaxtı Limada cüdo üzrə gənclər arasında keçirilən dünya çempionatı yarışlarının ilk günündə Azərbaycanın bir cüdoçusu fəxri kürsüyə qalxıb. 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Məhəmməd Musayev üçüncü yer uğrunda görüşdə komanda yoldaşı Nizami İmranova qalib gələrək bürünc medal qazanıb.

Dünya çempionatına 65 ölkədən 463 idmançı qatılıb.



### Tamblinq üzrə Azərbaycan millisinin üzvü Dünya Kuboku seriyasının qalibi olub

Tamblinq üzrə Azərbaycan milli komandasının üzvü Tofiq Əliyev Dünya Kuboku seriyasının qalibi olub.

3-5 oktyabr tarixlərində Fransanın Antibes şəhərində keçirilən mövsümün son Dünya Kubokunda idmançımız 29.200 xalla qızıl medal qazanıb.

Adil Hacızadə isə 26.800 xalla fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Tofiq Əliyev mövsüm ərzində qazandığı nəticələrə görə, eləcə də sonuncu yarışı birinciliklə başa vurduğu üçün Dünya Kuboku seriyasının qalibi olub.

### Azərbaycan paralimpiyaçısı Avropa çempionatında ikinci gümüş medalı qazanıb



Azərbaycanın paragüllə atıcısı Kamran Zeynalov Xorvatiyanın Osiyek şəhərində keçirilən Avropa çempionatında 50 metr məsafəyə tapançadan atəş açma (P4) yarışında gümüş medal qazanıb.

221.6 xal toplayan idmançı fəxri kürsünün ikinci pilləsinə qalxıb.

Qeyd edək ki, paralimpiyaçımız daha əvvəl qitə çempionatında qarışıq komanda üzrə 10 metr məsafəyə pnevmatik tapançadan atəş açmada (P6) Aybəniz Babayeva ilə birlikdə gümüş medala yiyələnib.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar



### Hindistan Rusiyadan əlavə beş ədəd S-400 sistemi almağı nəzərdən keçirir

Hindistan hökuməti Rusiyadan əlavə beş ədəd S-400 hava hücumundan müdafiə sistemi almaq imkanını dəyərləndirir.

Bu barədə "Hindustan Times" nəşri müdafiə sahəsindəki mənbələrə istinadla məlumat yayıb.

Nəşrin məlumatına görə, Hindistan Müdafiə Nazirliyinin nümayəndələri bu həftə rusiyalı həmkarları ilə görüşəcək. Görüşdə ölkənin müdafiə potensialını gücləndirmək məqsədilə S-400 zenit-raket komplekslərinin birgə istehsalı və ya birbaşa alınması məsələləri müzakirə olunacaq.

Mənbələr bildirir ki, Hindistanın 7 min kilometrlik sahil xəttini istənilən hava hücumundan qorumaq və xüsusilə Şimal Komandanlığının məsuliyyət zonasındakı hava hücumundan müdafiə boşluqlarını aradan qaldırmaq üçün daha beş ədəd S-400 sisteminə ehtiyacı var.

### ABŞ dekabrda yeni nüvə sualtı qayığının tikintisinə başlayacaq



ABŞ Prezidenti Donald Tramp "Virciniya" sinfinə aid yeni nüvə sualtı qayığının tikintisinə başlanılacağını açıqlayıb.

Bu barədə o, Virciniya ştatının Norfolk şəhərində ABŞ Hərbi Dəniz Qüvvələrinin Atlantik Donanmasının əsas bazasında çıxışı zamanı deyib. Bildirib ki, dekabrda "Virciniya" sinfinə aid yeni sualtı qayığın təməli qoyulacaq.

Pentaqonun mətbuat xidmətinin cari ilin iyun ayında yaydığı bəyanata görə, ABŞ hökuməti nüvə sualtı qayıqlarının inşası imkanlarının genişləndirilməsi və modernləşdirilməsini sürətləndirmək üçün "Electric Boat"a 987 milyon dollar ayırıb.



### Monteneqronun keçmiş müdafiə naziri həbs edilib

Monteneqronun keçmiş müdafiə naziri və Sosialistlərin Demokrat Partiyasının sabiq deputatı Predraq Boşkoviç həbs olunub.

Predraq Boşkoviç prokurorluğun qərarı ilə Podqoritsa hava limanında hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılıb.

O, iş adamı Aleksandar Miyayloviçə qarşı aparılan istintaq çərçivəsində həbs edilib. Onunla yanaşı, keçmiş 3 polis əməkdaşı və bir prokuror saxlanılıb. Onların əmlaklarına həbs qoyulması barədə qərar çıxarılıb.

### Krasnoyarsk diyarında AN-2 təyyarəsi sərt eniş edib, iki pilot həlak olub



Rusiyanın AN-2 təyyarəsi Krasnoyarsk diyarının cənubunda sərt eniş edib, nəticədə iki pilot həlak olub. Bu barədə Dövlətlərarası Aviasiya Komitəsi məlumat yayıb.

Təyyarədə iki nəfər olub. İlkin məlumata görə, təyyarə "Borus" MMC-yə məxsusdur. Qəzaya uğrayan təyyarə 53 il istismarda olub.

Rusiya İstintaq Komitəsinin Şərq Regionlararası Nəqliyyat İstintaq İdarəsi qəza ilə bağlı cinayət işi açıb. Hadisənin baş vermə səbəbləri araşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 530
Nüsxə 3630